Layihənin istiqaməti: Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği

№ 10 (2044) 13 fevral 2020-ci il

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

# "Lələ" istilahı haqqında bir neçə söz

**Orta əsrlər dövrü bədii ədəbiyyatın, incəsənətin, elmin və mədəniyyətin inkişaf etdiyi bir dövrdür. Rəssamlığın, nəqqaşlığın, el sənətinin, sənətkarlığın yüksəlməsi "Kitabi-Dədə Qorqud" kimi əzəmətli abidənin yenidən yazıya alınması, hər sahədə milli özünüdərkin, milli oyanışın güclənməsi də bu dövrə təsadüf edir. Bu dövr həm də bir sıra sənətkarların səmərəli fəaliyyət dövrüdür. Füzuli, Xətai, Sarı Aşıq və başqa sənətkarlar da bu dövrdə yaşayıb-yaratmışlar.**

Bu dövrdə həmçinin lirik janrın bayatı formasında şeirlər yazan, ilk bayatı ustası kimi tanınan Lələnin bədii yaradıcılığı intişar tapçışdır.

Azərbaycan orta əsrlər tarixi həm də müxtəlif istilahların yaranması və onlarla bağlı müvafiq vəzifələrin bərqərar olması ilə səciyyəvidir. Həmin istilahların yaranması və inkişafı barədə düzgün məntiqi nəticəyə gəlmək, obyektiv fikir söyləmək son dərəcə zəruridir. İstilahların obyektiv şərhini vermək hər hansı bir qaranlıq məsələnin açıqlanmasına çox kömək edər. Belə istilahlardan biri də tarixi ədəbiyyatda barəsində olduqca az məlumat olan "lələ"dir.

Tarix üzrə elmlər doktoru Şahin Fazil qeyd edir ki, görkəmli İran alimi Əli Əkbər Dehxudanın məşhur "Lüğətnamə" əsərində "Lələ" istilahı haqqında bir neçə məlumat verilmişdir. Bu alimin həmin istilahla əlaqədar aşağıdakı qeydləri vardır:

***a) Lələ-əyan övladlarının (kişi cinsindən olanların) təlim və tərbiyəsi ilə məşğul olan mürəbbi; b) Ehtiram əlaməti olaraq bu vəzifə sahibinə "Lələ ağa" da deyilmişdir; c) Lələlərin başçısı "Lələbaşı" adlanmışdır. Ə.Ə.Dehxuda bu istilahın "Lala" şəklində işləndiyini də bildirir.***

"Lələ" istilahı bizim mərhum alimimiz H. Zərinəzadənin də diqqətini cəlb etmişdir. O da "Lələ" titulu daşıyan şəxsin azyaşlı şahzadələrin tərbiyəçisi-müəllimi olduğunu və bu sözün Lələ, Lale, Lələ kimi işləndiyini qeyd edir. H.Zərinəzadəyə görə, "Lələ" sözü Azərbaycan dilində Şamaxı şivəsində "ata" və "məsləhətçi" mənasında, Xələc şivəsində isə "qardaş" mənasında işlənir. Bu sözdən əmələ gəlmiş lələgi-lələlik sözü də fars dilində işlənmişdir. O qeyd edir ki, Səfəvilər dövründə yazılmış lüğət kitablarında şox işlənən "lələ" sözü müasir fars danışıq və lüğət kitablarında "lələ" formasında tələffüz edilir və yazılır. Belə bir fonetik hadisə, yəni "ə"-nin "e"-yə çevrilməsi hadisəsi fars dilinin fonetik inkişafı ilə əlaqədardır. Hazırda Azərbaycanın əksər rayonlarında, Gürcüstanın azərbaycanlılar yaşayan bölgələrində ataya, ağsaqqala, hörmətli adamlara "Lələ" deyə müraciət edirlər.

***Bir sıra tarixi mənbələrdə də bu istilahla bağlı müəyyən şərhlər verilmişdir. Tarixçi alim, professor O. Əfəndiyev bu sətirlərin müəllifi ilə müsahibəsində qeyd edir ki, XV-XVİ əsrlərin "Rövzətüs-səfa", "Mətləüssədeyn", "Həbibüs-siyər", "Əhsən ət-təvarix", "Tarixi-cahanara", "Təkimilət əl-əxbar" və b. orta yüzilliklərin mənbələrində digər tarixi istilahlarla yanaşı "Lələ"dən də bəhs olunur.***

XV əsr Qaraqoyunlu dövlətinin ilk illərinin ilk təsvirini verən hadisələr şərh edilərkən "Əhsən ət-təvarix"də "Lələ" həmçinin "atabəy" kimi işlənmiş və Qara Yusifin oğlu Pirbudağın Əmir Qara adlı atabəyinin adı çəkilmişdir. Qeyd etmək lazımdır ki, "Kitabi-Diyarbəkriyyə" əsərində Uzun Həsən Ağqoyunlunun da lələsi "atabəy" adlandırılır. H. Zərinəzadə də atabəyi lələnin sinonimi kimi yazır. Bildirir ki, ətabək tərbiyəçi deməkdir. Bu söz türkcə olub, böyük ata mənasında olan "ətabeyk"dir. Bu sözdən "ətabəki"-atabəylik sözü də əmələ gəlmişdir. Bu söz əvəzinə lələ və ətaxacə (ataxoca) sözləri də işlənmiş, İsgəndər bəy Münşi isə bu sözün "atalıq" kimi də işləndiyini göstərmişdir.

Lələ bu vəzifəyə şəxsən şah tərəfindən təyin edilir və şahzadənin hərbi, mülki və s. işlərini onun adından idarə edirdi. Tarixçi-alim O.Əfəndiyev "Azərbaycan Səfəvilər dövləti" adlı əsərində yazır: "Şah İsmayıl Şamlı tayfasının əmiri Əliqulu xanı Heratın hakimi təyin etmişdir. Şah Məhəmməd Xudabəndə onu təsdiq edərək öz oğlu Abbas Mirzənin (gələcək İ Şah Abbasın) lələsi etmişdi. Abbas Mirzə Xorasanın nominal canişini sayılsa da, bütün işləri onun lələsi Əliqulu xan Şamlı idarə edirdi". Lələ vəzifəsinə namizəd əsasən hökmdarın yaxın qohumlarından olardı. Məsələn, İ Şah İsmayılın oğlu Sam Mirzənin lələsi Durmuş xan Şamlı öləndən sonra onun qardaşı Hüseyn Şamlı gənc şahzadənin yeni lələsi olmuşdur.

Lələ başqa adlı-sanlı əmirlərdən də təyin edilirdi. Ağqoyunlu dövlətində böyük rol oynamış əmir Sufi Xəlil bir müddət şahzadə Baysunqurun (Sultan Yaqub Ağqoyunlunun oğlu. F.Ş.) lələsi olmuşdur. Əmirin lələliyə keçməsi onun tərəfindən böyük bir hadisə kimi qiymətləndirilir və əmir bu münasibətlə ziyafət verirdi. Çünki azyaşlı şahzadə hələ həddi-buluğa çatmadığı üçün əyalətin bütün işləri Əmir Məhəmmədə tapşırılmışdır. Həsən bəy Rumlu yazır ki, Əmir Məhəmməd lələ olduqdan sonra dərhal İsfahana gəlmiş "daruğə" (darğa, hakim) sifətilə oranı şahzadənin adından idarə etməyə başlamışdır. Əmir Məhəmməddən sonra həmin vəzifə onun qardaşı lələ Səfərşaha verilmişdi. Hicri 872, milad 1467-ci ildə Cahanşah Ağqoyunlular tərəfindən öldürülərkən lələ Səfərşah da qətlə yetirilir. Təsadüfi deyil ki, lələyə bəzən "etimadüd-dövlə" də deyilmişdir. Xandəmirin yazdığına görə əyalətin bütün səlahiyyəti lələnin ixtiyarında idi.

***O.Əfəndiyev yazır ki, ilk Səfəvi şahları şahzadə anadan olan kimi ona lələ təyin edirdilər. Belə ki, hicri 938-ci ildə (milad 1531-ci il) doğulan şahzadə Məhəmmədə (gələcək Səfəvi hökmdarı Məhəmməd Xudabəndə) (1578-1587) onun əmisi Sam Mirzənin lələsi Hüseyn xan Şamlı lələ təyin edilmişdir. Əbdül bəy Şirazinin məlumatına görə, "şahzadəni əzəmətlə onun evinə aparıb, ona tapşırdılar". Hicri 963-cü ildə (milad 1555-ci il) anadan olan Heydər Mirzəyə Şah Təhmasib dövlətin vəkili vəzifəsini daşıyan Məsum bəy Səfəvini lələ təyin etmişdi.***

Dövlətin əsas şəxslərindən biri hesab edilən lələ başqa dövlətlərlə danışıqlar apara və saziş bağlaya bilərdi. Bunu Mirzənin lələsi Məsum bəy Səfəvinin oğlu Sərəddin xan Yubanşahdan Şeyxavənd tayfası və gürcü əyanları ilə əlaqəyə girərək qeyyumluğu altında olanın hüquqları uğrunda mübarizə apararaq onlarla anda əsaslanan ittifaq bağlaması misal ola bilər.

Orta əsrlərə aid tarixi mənbələrdən aydın olur ki, o dövrdə lələ ən nüfuzlu şəxs kimi həm şahzadələrə tərbiyəçilik edir, həm də sədaqətinə, etibarına, dövlət işlərində qabiliyyətinə və bacarığına görə şah tərəfindən yüksək vəzifələrə irəli çəkilirdi. Belə ki, ilk Səfəvilər dövründə həm dünyəvi, həm də dini işlərdə şahın tam hüquqlu müavini sayılan, şahdan sonra ikinci şəxs hesab edilən vəkil vəzifəsinə (o, siyasi və dini tədbirlərin həyata keçirilməsində qayda yaradılması üçün şahın qarşısında məsuliyyət daşıyırdı. F.Ş.) ilk təyin olunan şəxs İ Şah İsmayılın lələsi Hüseyn bəy Şamlı olmuşdur. Bununla bərabər Lələ Şamlı Şirvana canişin, İ Təhmasibin lələsi (atabəyi) Div Sultan həm də dövlət işləri üzərində əməli nəzarətçi, Heydər Mirzənin lələsi Məsum bəy Səfi isə divan əmiri olub yüksək vəzirət vəzifəsinə təyin edilmişdi.

Döyüşlər zamanı lələlər də əmirlər kimi iştirak edirdilər. 1500-cü ildə Gülüstan qalası yaxınlığında İsmayılla Şirvanşah arasında başlanan döyüşdə qızılbaş döyüşçüləri sırasında Hüseyn bəy Lələ və Lələ Məhəmməd Təkəli də var idi. Onu da deyək ki, İ Şah İsmayılın məşhur lələsi Hüseyn bəy Lələ Çaldıran döyüşündə şahzadəyə axıra kimi sadiqlik göstərmiş, son nəfəsinə qədər döyşmüş və bu yolda canını qurban vermişdir.

İ Şah İsmayılın hakimiyyəti dövründə qoşunu və ya ölkəni idarə etmək üçün bəzən bir şahzadənin iki lələsi olmuşdur. Tarixçi Ş.Fazil yazır ki, "Əhsən ət-təvarix"də göstərildiyinə görə, bir müddət Şirvan hakimi olan Alxas Mirzəyə müxtəlif vaxtlarda iki lələ təyin olunmuşdu.

**Onun axırıncı lələsi Qazan Xan Təkəlinin qətlindən sonra Alxas Mirzə lələsiz qalmışdı. Görünür ki, şahzadə dövlət və hərbi işlərini müstəqil idarə etməyi bacarandan sonra daha lələyə ehtiyac qalmırdı.**

Tarix kitablarında qadın şahzadələrin də lələsi olduğu barədə bilgilər vardır. O.Əfəndiyev yazır ki, Pərixan xanım dəyəri 10-15 min tümən olan əmlakı xəyanət etdiyi üçün onun lələsi Xəlil xan Əfşara hədiyyə verildi.

Tarixçi-alim Şahin Fazil Fərzəlibəyli yazır ki, bacısının Qəzvində hakimiyyəti əlinə aldığını eşidən Məhəmməd Mirzə (gələcək Səfəvi şahı) dərhal onu taxt-tacdan kənar etmək məqsədi ilə Qəzvinə yollanır və şəhərə çatan kimi Pərixan xanımın lələsi Xəlil xan Əfşara öz rəqib bacısını qətlə yetirmək əmrini verir. Göründüyü kimi Səfəvilərin hakimiyyəti dövründə lələ vəzifəsini daşımaq şərəf hesab edilirdi. Bu vəzifəyə nail olmaq üçün dəridən-qabıqdan çıxan, amma istəyinə çata bilməyən şəxslər də az olmamışdır. Erkən orta əsrlərdə Şərq poeziyasında Nizaminin "Xəmsə"sindən sonra klassiklər arasında "Xəmsə" yaratmaq, "Leyli və Məcnun" və digər mövzularda əsər yazmaq marağı nə qədər güclü olmuşsa, o qədər də Azərbaycan Səfəvilər dövlətində "lələ" vəzifəsinə güclü maraq göstərilmişdir. Həmin mövzularda qələmlərini sınamaq o dövrün sənətkarları üçün nə qədər şərəf sayılırdısa, o qədər də "lələ" vəzifəsinə nail olmaq şərəf hesab edilirdi. Bu vəzifədən kənarlaşdırılan şəxslər sonradan da lələ təxəllüsünü daşıya bilirdi.

**Səfəvilərin hakimiyyətindən sonra Azərbaycan şahzadələrinin lələlərinin olub-olmadığı barədə məlumata hələlik heç bir tarixi mənbədə rast gəlinmir. Ancaq XV-XVİ əsrlərdə Osmanlı dövlətində də şahzadələrin lələlərinin olması barədə bilgilər vardır.**



**Faiq ŞÜKÜRBƏYLİ,**
**filologiya üzrə fəlsəfə doktoru**

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ DƏSTƏYİ İLƏ DƏRC OLUNUR